Raqif İsrayılov 1975-ci il mart ayının 11-də Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub. 1993-cü il aprelin 20-də Azərbaycan Respublikası Ordu sıralarına çağırılıb və "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətə başlayıb.

Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini taktiki mühəndis qoşunları komandiri ixtisası üzrə bitirdikdən sonra ona hərbi rütbə verilib. Hərbi hissənin mühəndis-istehkam bölüyünün komandiri olub.

1999-cu il fevralın 1-də hərbi hissənin ərazisində Sovet ordusu tərəfindən basdırılmış minaların çıxarılması zamanı mina partlayışı nəticəsində yaralanıb.

Bir müddət briqadanın mühəndis xidmət rəisi olub. 2001-ci il noyabrın 5-də hərbi hissənin ön mövqeyində döyüş tapşırığını yerinə yetirərkən mina partlayışı nəticəsində ikinci dəfə yaralanıb.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsinin İdarəetmə Akademik kursunu bitirib.

2021-ci il sentyabrın 15-də Azərbaycan Ordusu sıralarından ehtiyata buraxıldıqdan sonra Təlim-Tədris Mərkəzində baş müəllim kimi fəaliyyət göstərir.

Prezident İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb.

Prezidentin müvafiq sərəncamları ilə təltif olunduğu "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Zəngilanın azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" və Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalları qəhrəmanlıq tariximizin canlı şahidinin döyüş şücaətinin göstəricisidir.

# Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Raqif İsrayılov: “Qəhrəmanlıq tariximizi yaşatmaq müqəddəs borcumuzdur"





**- Cənab polkovnik, xalqımızın qəhrəman oğlu kimi döyüş yollarınızın unudulmaz anlarını necə xatırlayırsınız?**

- Mən qazandığım bütün uğurları sadəcə olaraq bir vətəndaş kimi vətənə borcum və zabit olaraq vəzifə öhdəliyim hesab edirəm. İştirakçısı olduğum saysız-hesabsız döyüşlərin hər biri qəhrəmanlıq tariximizin canlı salnaməsidir. Çünki torpağı işğal altında olan ordunun generalından tutmuş hər bir əsgərinə qədər hamısının bir yolu var idi: ya müharibədə qəhrəmancasına vuraşaraq şəhidlik zirvəsinə ucalmalısan, ya da işğal altında olan torpaqlarımızı azad etməklə xalqı sevindirməlisən. Son dərəcə ağır keçən döyüşlərdə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi və əsgərlərimizin qəhrəmanlığı nəticəsində ordumuz qalib gələrək 30 il ərzində düşmənin işğal etdiyi əbədi yurd yerlərimizi azad etdi. Döyüşlərdə canlarını fəda edən şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərə isə sağlam ömür arzulayıram.

**- Hansı əmrlərin icrası sizin üçün daha çox yadda qalıb?**

- İcra etdiyim tapşırıqların hər anı yaddaşımda əbədi qalıb. Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan istiqamətində hücum edən qoşunların mühəndis təminatının təşkilinə, xüsusilə də düşmənin artilleriya və aviasiya qüvvələrinin atəşi altında Həkəri çayı üzərində düşmən tərəfindən partladılmış körpülərin ətrafının partlayan maneələrdən təmizlənməsi, brod keçidləri və tank körpüquraşlarından istifadə etməklə hərbi körpülərin hazırlanmasına rəhbərlik etmişəm.

Əsgərlərimizlə birlikdə Kəlbəcər rayonunun işğaldan azad edilməsi və qoşunların maneəsiz hərəkətini təmin etmək üçün sərt dağlıq və qarlı ərazilərdə Ömər aşırımından keçməklə mövcud düşmən tərəfindən minalanmış və dağıdılmış yolun bir hissəsinin mina və digər maneələrdən təmizləyərək bərpa olunmasına, mümkün olmayan hissələrdə isə yeni yolun çəkilməsinə nail olmuşuq.

Laçın rayonunun işğaldan azad edilməsi və qoşunların maneəsiz hərəkətini təmin etmək üçün Güləbird-Laçın yolunun mina və partlamayan maneələrdən təmizlənməsi, yolun partladılmış hissəsinin bərpası, partladılmış körpülərin ətrafının minalardan təmizləyərək keçidləri hazırlamışıq.

Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları istiqamətində hərəkət edən qoşunların mühəndis təminatının təşkilinə, hərbi körpülərin hazırlanmasına rəhbərlik etmişəm. Düşmən tərəfindən partlayışa hazırlanmış 2 körpünün elektrik partlayış xəttini kəsərək zərərsizləşdirmişik. Şuşa şəhərinin işğaldan azad edilməsi üçün düşmən artilleriyasının atəşləri altında dağlıq və sıx meşəlik ərazilərdən ZƏFƏR yolunun qısa müddətdə çəkilməsində və qoşunların həmin yoldan keçməsinə də çalışmışıq.

**- Həmin anlar arxa cəbhənin dayağını necə hiss edirdiniz?**

- Döyüşlər səngiyəndə əsgərlərə yazılan məktubları nəzərdən keçirirdim. Bir məktəbli balaca qızın "əsgər əmi, Allah sizi qorusun" sözləri bizə yenidən güc və qüvvət verdi. Yazırdı ki, siz vətənimizi və bizi qoruyursunuz, biz də sizə arxalanırıq və sizi çox istəyirik, arxanızda dayanırıq. 1-2 sətirlik cümlə bizə elə bir qüvvə verirdi ki... Bu sözlərdən sonra dayanmaq olmazdı, istirahət və yemək əsla yadımıza düşmürdü, yalnız irəliyə və düşməni susdurmağa, torpaqlarımızı azad etməyə can atırdıq. Ordumuzun bütün təminatı olduğu halda təqaüdünü əsgərə kömək üçün göndərən ağsaqqalın və ağbirçəyin hərəkəti də bizə əlavə güc verirdi. Bir sözlə, müharibəni əsgərlər xalqın dəstəyi sayəsində aparırdı. Bu mənada Qələbənin qazanılmasında xalqımızın orduya qayğısı və dəstəyi öz sözünü dedi.

**- Düşməni məhv edib torpağımıza qədəm qoyduğunuz vaxt hansı hissləri keçirdiniz?**

- Açığı bu sözlə ifadə ediləsi bir hiss deyil. İstərdik ki, o ərazilərə bir müddət gedə bilmədiyimizə görə torpağımızdan üzrxahlıq edək. Ordumuzun gücünü real şəkildə yetərincə gördük və ürəkdən sevindik. Çünki hər biri orduya bərabər olan əsgərlərimizin rəşadətini həqiqi mənada bildik. Hətta yaralanan əsgərimiz imkan olan kimi irəliyə can atırdı. Hətta yaralı halda tibb maşınından düşüb döyüşə qatılan oğullarımız da var idi. Dünyanın heç bir ordusunda bunu görmək, bəlkə də mümkün deyil. Bu səbəbdən də ordumuzun tezliklə qalib gələcəyinə əmin idik.

Onu da qeyd edim ki, digərlərinə baxanda mən işğal altında olan torpaqlarımıza bir qədər tez qədəm qoydum. Bu mənada döyüşün ilk günündən işğal altında olan torpaqlarımıza ayaq basdım. Çünki istehkamçılar daim öndə olurlar. Beləliklə də müharibənin birinci günündən əsgərlərin sevinc göz yaşlarını gördüm. İrəlilədikcə isə uğurlarımız getdikcə artırdı. Baxmayaraq ki, düşmən yollara, həyətlərə, hərəkət edə biləcək bütün yerlərə mina basdırmışdı. Azərbaycan ordusunun generallarından əsgərinə kimi hər biri düşməni məhv etmək əzmində idi. Təlimlərimiz son dərəcə gərgin şəraitdə keçdiyindən ordumuz ilk gündən Qələbəni gözləyirdi. İlk dəfə 4 kəndimizin azad edilməsini eşidəndə sevincimizin həddi-hüdudu olmadı.

**- Döyüş rəşadətinizin Prezidentin sərəncamı ilə yüksək qiymətləndirilməsi xəbərini necə qarşıladınız?**

- Müharibə vaxtı bütün əsgərlərin bir məqsədi vardı ki, torpaqlarımızı azad edək. Mən həmin vaxt Şuşadan Bakıya gəlirdim, yoldaşlar zəng vuraraq təbrik etdilər. Açığı, mən bir əsgər olaraq vətən yolunda xidmət göstərməyə çalışmışam. Prezidentimiz tərəfindən əməyimizin qiymətləndirilməsi isə mənə son dərəcə böyük stimul verdi. Çox sevindim.

**- Bu hissləri ilk dəfə olaraq kiminlə bölüşdünüz?**

- Bir qədər xidmətlərimi xatırlamalı oldum və sevincimi ilk dəfə oğlumla bölüşdüm. Həmin vaxt onun 12 yaşı vardı.

**- Döyüş yoldaşlarınızla görüşləriniz olurmu?**

- Mütəmadi. Şəhid yoldaşlarımızı da daim ziyarət edirik. Çünki tariximizi yaşatmaq bizim müqəddəs borcumuzdur. İndi Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində müəllim işləyirəm. Şəhidlərimizin ruhunun şad olması üçün hər birimiz çalışmalıyıq və şəhidlərimizi daim yaşatmalıyıq. Bütün görüşlərdə və tədbirlərdə şəhid ailələri ilə görüşürəm və qazilərlə söhbət edirəm. Azərbaycan Qələbədən sonra dünyada yerini daha da möhkəmləndirib və getdikcə inkişaf edir.

Ulu öndər Heydər Əliyevin müdrik siyasətinin Prezidentimiz İlham Əliyevin rəhbərliyi sayəsində uğurla davam etdirilərək yüksək səviyyədə həyata keçirilməsi xalqımızın hər bir nümayəndəsi kimi, əsgərlərimiz tərəfindən də məmnunluq hissi ilə qarşılanır. Biz tarixi Zəfər qələbəsini əbədi qorumaq üçün şəhidlərimizi daim uca tutmalı, qazilərimizə və hər bir əsgəri igid olan ordumuza arxalanmaq üçün qəhrəmanlığımızı geniş şəkildə təbliğ etməliyik. İştirak etdiyim bütün tədbirlərdə və görüşlərdə qəhrəmanlıq tariximizi yaşatmağa çalışıram. Çünki xalqımızın parlaq gələcəyi ordumuzun gücü ilə birbaşa bağlıdır.

**Mikayıl NƏRİMANOĞLU, "Respublika".**